**Müstəqil Ağayev**

**AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, Azərbaycan fəlsəfə tarixi şöbəsinin aparıcı elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent, Qabaqcıl Maarif Xadimi**

# Həsən bəy Zərdabinin fəlsəfi görüşləri

## II Yazı

***Həsən bəy Zərdabi yaradıcılığının diapazonu çox geniş və əhatəlidir. "Əkinçi" qəzetində təkcə kənd təsərrüfatına aid məsələlər barəsində danışılmırdı, eyni zamanda, elmin bu və ya digər sahələrinə aid çox maraqlı və diqqəti cəlb edən elmi yeniliklər, zamanı üçün vacib və tətbiqi zəruri sayılan fikir,mülahizə və tövsiyələr də öz əksini tapırdı.***

***Ulduzların axması haqqında dinin uydurduğu təsəvverlərə görə, cinlər (pərilər)allahın məkanını öyrənmək üçün bir-birinin üstünə çıxır və göyün yeddinci qatına qalxmaq istəyirlər. Cinlərin bu özbaşınalığı allahın xoşuna gəlmir və mələklərə əmr edir ki, ulduzların köməyi ilə onları yandırsınlar. Belə də olur: tiri-şəhab adlanan ulduz axaraq pərilərin qanadlarını yandırır və onlar məhv olurlar. Zərdabi isə bir astronom kimi bu uydurmanı təkzib edir və bunu kainatın daxili qanunauyğunluğu kimi izah edr. Elə bunun özü də dini uydurmalara vurulan ağır bir zərbə idi.***

Zərdabi Günəş və Ayın tutulmasının səbəblərini də elmi dəlillərə əsaslanaraq, belə izah edir: "Biz Gün, Küreyi-ərz və Ay bir-birinin başına dolandığından danışdıq, çünki bu səbəb Ay və Gün tutulmasının səbəbidir, ona binaən Ay və Gün tutulmasından bir neçə (kəlmə) danışmağı münasib bildim. Ay axşamladığı zaman Küreyi-ərz Ay ilə Gün arasında, üçü də bir cərgədə olurlar. Oxuculardan təvəqqə edirəm ki, bir təbəqə kağız üstə onların özünün və kölgələrinin şəklini çəkib baxsınlar. Ona binaən bu zaman Ay Küreyi-ərzin kölgəsindən keçsin və onun kölgəsinə daxil olanda onun üstə Günün şəfəqi düşməyir, yəni Ay tutulur. ..Günün tutulması Ayın Küreyi-ərzlə Günün arasında , üçünün də bir cərgədə olmasıdır.ki, Ay yeni olan zaman olur. Belədə Gün Ayın kölgəsinin içinə daxil olanda Gün tutulur" (Həsən Məlikzadə Zərdabi. "Torpaq, su və hava".Bakı, 1912-ci il, səh.47).

Zəlzələnin baş verməsi barədə dinin uydurmasına görə, Yer Göy öküzün buynuzları üstündə, öküz isə dəryadakı ən nəhəng balığın üstündə dayanır. Allahdan əmr olunanda balıq hərəkətə gəlir və balığın buynuzları arasında yatan öküz də oyanır, başını tərpədir...və bu zaman Yer kürəsi də hərəkətə gəlir, nəticədə zəlzələlər baş verir.

H.B.Zərdabi bununla insanların şüurunda özünə möhkəm yer tutmuş dini uydurmaları təkzib edərək göstərmək istəyir ki, bütün bunlar və buna bənzər hadisə və proseslər uydurmadan başqa bir şey deyil, bu proses və hadisələr təbiətin öz daxili qanunauyğunluğunun nəticəsidir Bu hadisələrin meydana çıxmasında heç bir kənar, fövqəltəbii qüvvələr və allh iştirak etmir. Çünki ayeyi-şərifdə göstərilir ki, allah öz bəndələrinə (yaratdıqlarına) zülm etmək istəməz.

İnsanlar görürlər ki, böyük dağıdıcı gücə malik olan zəlzələlər yer üzərində canlı-cansız hər nə var, məhv edirlər. Bu fəlakətlər, dünyanı məhv edən, bəşəriyyətə ölüm gətirən zəlzələlər varlığa zülm deyildirmi? İnsanlar bir tərəfdən belə hadisələrin canlı şahidi olur, digər tərəfdən ruhanilərin Qurandan gətirdikləri ayələri dinləyirlər. Maraq doğuran cəhət bundan ibarətdir ki, insanlar gördüklərini unudub, eşitdiklərinə inanırlar?.Əgər Allah öz bəndələrinə zülm etmək istəmirsə, onda bu hadisələri nə adlandırmaq olar? Bəs zülm nədir, nə deməkdir? Nə isə...

Filosoflar fəlsəfənin əsas məsələsi olan təfəkkürün varlığa və ruhun təbiətə olan münasibəti məsələsini özlərinəməxsusşəkildə izah etməyə çalışmışlar. Zərdabi isə bu məsələni materialistcəsinə həll etmişdir. Deməli, materialist baxış, yanaşma o deməkdir ki, təbiəti və onun hadisələrini necə varsa, eyni ilə, olduğu kimi, heç bir kənar, fövqəltəbii qüvvələrin müdfaxiləsi olmadan mövcudluğunu qəbul etmək deməkdir.



***Həsən bəy Zərdabiyə görə, materiya, təbiət birincidir, şüur isə ikincidir, ondan törəmədir. Şüur hərcür materiyanın deyil, çox yüksək dərəcədə inkişaf etmiş insan beyninin məhsuludur. Zərdabi də təbiətşünaslığın nailiyyətlərinə əsaslanaraq, ruhun ölməzliyini rədd etmiş və göstərmişdir ki, varlıq, təbiət birinci, ruh isə ikincidir, bədənsiz ruh mövcud ola bilməz. Ağıl da, təfəkkür də beynin məhsuludur.***

***Bu münasibətlə Zərdabi yazırdı:"Təcrübə ilə biliblər ki, insanın ağlı beyin ilədir. Yəni insanın beyni artıq olar sa, ağlı da çox olar...İnsanın hər bir hərəkəti və fikir dərəcəsi beyin ilədir və beyin başda və beldə olur və oradan bədənin hər bir tərəfinə damarları gedir". ( "Əkinçi" qəzeti, 1875-ci il, 6-cı sayı və 23 avqust 1876-cı il, 16-cı sayı)***

Keçən əsrin 70-ci illərində Azərbaycanda dini mövhumatın hökm sürdüyü bir şəraitdə insanın allah tərəfindən yaradılmasına azacıq da olsa şübhə edənlər nadan müsəlmanlar tərəfindən "kafir" deyə təhqir olunduğu və ələ salındıqları bir zamanda Həsən bəy Zərdabi cəsarətlə insanın da təbii inkişaf nəticəsində yarandığını irəli sürmüşdür. O yazırdı ki, insan da heyvandır, ancaq ağlı artıq olduğu səbəbinə tamam heyvanların padşahıdır İnsanın heyvan olmağı xüsusda şəkk yoxdur. Hər bir insanda olan əza heyvanlarda həm var. İnsan da heyvanlar kimi yeyir, içir və onlar kimi ölüb tələf olur". ("Əkinçi" qəzetinin 15-ci sayı, 21 iyul 1877-ci il).

Həsən bəy Zərdabi göstərir ki, insanı allah yaratmamışdır, o, təbiət tərəfindən yaradılmışdır, təbiətin bir parçasıdır. İnsanın şüuru da kimsə tərəfindən kənardan gətirilib beynin içərisinə qoyulmamışdır. O, beynə məxsusdur, beynin məhsuludur. İnsan təbii-elmi qanunauyğunluqlar nəticəsində yaranmışdır.Təkamül nəticəsində bəsit üzvi maddələr, sonra bitkilər və heyvanlar və ən axırda insan dünyaya gəlmişdir: " Neçə milyon illər Yer üzərində o qədər isti olmuş ki, orada heyvanat və nəbatatın zindəganı mümkün olmamışdır. Yer üzərində əvvəl nəbatat və heyvanat əmələ gəlmiş və axırda insan dünyaya gəlmiş, çünki axırıncı qatın üstə insan və onun sümüklərinin (kəmiklərinin), ya bir qeyri hissəsinin şəkli tapılır, ondanirəli əmələ gələn qatların içində insandan heç bir əsər yoxdur" ( H.B Zərdabi, "Torpaq, su və hava", Bakı, 1912-ci il).

Ümumiyyətlə, Həsən bəy Zərdabi uzuzn illər ərzində davam etdirilən elmi təçrübələrdən sonra belə nəticəyə gəlir ki, insan da heyvandır. "Elmi heyvanatdan" adlı məqaləsində o belə yazır: " İnsanın bədəninin üzvlərindən danışan vəqtdə arabir deyirik ki, filan heyvanın filan üzvünə bax. Həqiqət, insan da qeyri heyvanların birisidir... İnsan yemək-içməkdə, nəfəs almaqda, doğub-törəməkdə və qeyridə heyvandır vəheyvanlar cümləsinə daxilldir". ( "Həyat" qəzeti, 1905-ci il, 121-ci sayı).

Həsən bəy Zərdabinin dini görüşlərinin formalaşmasında M.F.Axundov fəlsəfəsi böyük rol oynamışdır. Onun " Aləmin məhv olması haqqında şayiələrə dair" , "Ayın fazalarının Yer üzərində üzvi həyata təsiri", "Marsda insan yaşayırmı?", "Yeni ulduzlar" və sair əsərləri kainatın inkişafı haqqında olan yanlış vəuydurma təsəvvürlərin tənqidinə həsr edilmişdir.

H.B. Zərdabi Günəş sisteminin planetlərindən danışarkən, birinci növbədə Yerin əmələ gəlməsi haqqında idealist fikirləri ciddi tənqid edir və bu prosesdəheç bir ilahi qüvvənin iştirak etmədiyini açıq-aşkar söyləyir. " Elmə və hükəmanın əqidəsinə görə, Küreyi-ərz əmələ gələndə artıq istidən ərimişşeylərdən mürəkkəb imiş. Çünki belə su kimi havada olanda kürə olub və kürə fəzada, yəni dünyaları əhatə edən boşluqda dövr edən zaman bu boşluğun mürur ilə soyuiyub üzü qabıq bağlamış". (H.B.Zərdabi, "Torpaq, su və hava", Bakı, 1912, səh.!).

***Bəzi yanlış dini təsəvvürlərə görə, guya Yer öz mahiyyəti etibarilə göydən fərqlənir.Zərdabi isə bu fikri yanlış hesab edərək göstərir ki, Yer ilə Göy arasında müəyyən istisnalarla mahiyyət eynidir. Ayın və Günəşin tutulmasını da Zərdabi elmi biliklər əsasındaizah edərək göstərir ki, Yer Ayla Günəş arasında olarkən Günəş tutulması, Günəş Ayla Yer arasında olarkən Ay tutulması baş verir. Bu hadisələr də təbii qanunauyğunluqlar əsasında baş verir. Burada da heç bir fövqəltəbii qüvvələrin iştirakından söz gedə bilməz.***

Həsən bəy Zərdabinin məqalələrində idrak məsələsinə də toxunulmuşdur. Onun idrak nəzəriyyəsinə aid fikirləri də böyük əhəmiyyət kəsb edir. O, fəlsəfənin əsas məsələsini də materialistcəsinə həll etmişdir. Özünün təbiət tarixinə aid bir sıra əsərlərində və məqalələrində dünyanın dərk edilə bilməsinə şübhə edənlərə qarşı etiraz edərək qəti şəkildə söyləmişdir ki, dünyanı dərk etmək tamamilə mümkündür. Çünki bəşəriyyətin inkişaf tarixinin gedişi dünyanın dərk edilməsinin mümkünlüyünü sübut edir.

Zərdabi yazırdı ki, dünyanın dərk edilə bilməsinə şübhə edənlər insan ağlına, onun qabiliyyət və bacarığına inamsızlıq göstərmişlər. " Hərgah dioqqətlə mülahizə edəsən , aşkar olur ki, insan tamam dünyaya malikdir. Ağlı ilə hər bir şeyin səbəbini axtarıb və bu tövr ilə elmlər bina edib, su ilə maşınlar, külək ilə dəyirman, su buğu ilə atəş ərradəsi, gəmisi və qeyrə işlədib, hətta göydə olan günün istisi ilə maşınlar bina edir. Pəs ağıl və elm ilə insan tamam dünyanı təsərrüf edə bilər" ( "Əkinçi" qəzeti, 15-ci sayı, 21iyul 1877-ci il).

***Həsən bəy deyirdi ki, əgər insan dünyanı dərk edə bilməsə idi, onda o, təbiətin qulu olardı. Təbiəti öz məqsədləri üçün dəyişdirə bilməzdi. Halbuki biz təcrübədə bunun əksini görürük. İnsan getdikcə təbiəti daha çox dəyişdirir, yeni bitki və heyvan növləri yetişdirir və i.a.***

Həsən bəy Zərdabi qeyd etmişdir ki, dünyanın dərk edilməsi sahəsində heç bir yeni addım atmayan, yalnız ata-babalardan qalmış bilikləri əxz edən nəsil ölü nəsildir. Çünki dünyada hələ öyrənilməmiş, dərk olunmamış çox şeylər vardır, hər yeni nəsil borcludur ki, o, bu öyrənilməmiş , dərk edilməmiş şeylərin müəyyən qismini öyrənib dərk etsin. Bunsuz cəmiyyətdə, insan ağlında heç bir tərəqqi mümkün deyildir.

Həsən bəy hissi idrakı bütün idrak prosesinin başlanğıcı və əsası hesab etmişdir. Onun nəzərincə, hiss üzvlərsiz insan dünyanı dərk edə bilməz və onun ağlı heç dərəcəsində olar.O, idrak prosesində hiss üzvlərinin roluna, əhəmiyyətinə həsr etdiyi "Həvasi-xəmsə"adlı xüsusi bir məqalədə bu barədə yazmışdır: "İnsan ətrafda olan şeyləri və dünya ilə olan münasibətlərini həvasi-xəmsə vasitəsilə dərk edir. Həvasi-xəmsənin əvvəlincisiqüvveyi-bəsirədir ki, gözlərin vasitəsilə, ikincisiqüvveyi-samiədir ki, qulaqların vasitəsilə, üçüncüsüqüvveyi-şammədir ki, burun vasitəsilə, dördüncüsü qüvveyi-zaiqədir ki, dil vasitəsilə, beşincisi qüvveyi-lamisədir ki, bədənin dərisinin vasitəsi ilə dərk olurlar". ("Həyat" qəzeti, 110-111-ci sayları, 30 noyabr və 1 dekabr 1905-ci il).Zərdabi hiss üzvlərini kanallar kimi təsvir edərək göstərirdi ki, dünyadakı şeylər bu duyğu orqanlarına təsir edib kanallar vasitəsi ilə beynə axıb gəlir, beynin vasitəsi ilə tənzim edilir. Şeylər haqqında doğru bilik hasil olur.

O, xarici aləmin obyektiv varlığını və hiss üzvlərimizə onun təsirini dönə-dönə qeyd edərək belə bir nəticəyə gəlmişdi ki, əgər xarici aləm olmasaydı, duyğularımız da olmazdı. Həsən bəy "Həvasi-xəmsə" və başqaəsərlərindəqeyd etmişdir ki, hisslərimiz idrakımızda çox böyük rol oynasada, hələ idrak üçün kifayət deyildir. Dünyada elə hadisə və proseslər vardır ki, biz onları bilavasitə hiss orqanlarımızla duya bilmərik. Burada idrak yalnız əqli mühakimələr yolu ilə aparılır.

***Həsən bəy Zərdabi Yerin kürə şəklində olmasını, səsin saniyədə 340 xan arşını yol getməsini, zəlzələnin, yağış, dolu və qar yağmasının səbəblərini buna misal gətirib göstərir ki, biz bunları bilavasitə duyğularımızla dərk edə bilmərik, lakin ağlımızın köməyi ilə bunların mahiyyətini dərk edirik. O yazırdı ki, "səbəblər gizlində, dərinlikdə bulunurlar" Ona förə də hadisə və proseslərin səbəbləri yalnız duyğu orqanlarımız vasitəsilə öyrənilə bilməz.***

**(ardı var)**